| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU408, Azərbaycan dilinin tədris metodikası, 3 kredit, 6AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dos., fil.ü.e.d. Elmira Məmmədova-Kekeç |
| | **E-mail:** | elmira.mammadova@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | Cümə, 17:00-18:00 |
| **Prerekvizitlər** | EDU 101, EDU302 | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br>1. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm və təhsil, 2019<br>**Əlavə ədəbiyyat:**<br>1. Aygören Fatih, Ünlü Buse, Türkal Berkay. Öğretmen 4.0. Öğretim Teknikleri Ankara, Nobel Yayınları, 2020<br>2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (təlim Azərbaycan dilində olan məktəblər üçün) fənni kurikulumu (V-XI siniflər)<br>3. Yeni Öğretim Programına Göre Kuramdan Uygulamaya Türkçe Öğretimi, Editör. Prof. Dr. Cemal Yıldız, Pegem\Akademi yay. 2010, Ankara.<br>4. Öğretim teknolojileri ve materyal geliştirme, Prof. Dr. Halil İbrahim Yalın, Nobel yay. 27.Basım, Ankara 2014<br>5. "Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>6. http://www.e-derslik.edu.az/site/index.php<br>7. http://www.kurikulum.az/index.php/az/kurikulumlar/umumi/ibtidai<br>8. http://www.kurikulum.az/index.php/az/kurikulumlar/umumi/umumi-orta<br>9. http://www.dersturkce.com/anasayfa | |

| | | |
|---|---|---|
| **Tədris metodları** | Mühazirə | + |
| | Qrup müzakirəsi | + |
| | Praktiki tapşırıqlar | + |
| | Praktiki məsələnin təhlili | + |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Fəallıq | | 5 |
| | Tapşırıq (Açıq dərs layihəsi) | 16 may 2026-cı il | 10 |
| | Tapşırıq (Video dərs layihəsi) | 09 may 2026-cı il | 10 |

| | | | |
|---|---|---|---|
| | **Aralıq imtahanı** | **04.04.2026** | **30** |
| | **Final imtahanı** | | **40** |
| | Davamiyyət | | 5 |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Kursda ana dilinin tədrisinin məqsəd və vəzifələri, Azərbaycan dili təliminin məzmunu və nəzərdə tutulan təlim nəticələrinin mahiyyəti, təlim məqsədlərinin təyini, qazandırılacaq yüksək idraki bacarıqların formalaşdırılması metodları üzərində durulacaqdır. Azərbaycan dilinin təlim strategiyaları, konstruktiv təlim nəzəriyyəsinə əsasən təliminin təşkilinə verilən tələblər, təliminin təşkilində istifadə olunan forma, üsul və texnikalardan və fəaliyyətin planlaşdırılmasından bəhs olunacaq, şagird nailiyyətlərinin qiymətləndirilməsi növlərindən və qiymətləndirmə vasitələrinin hazırlanması üsulları, səmərəli öyrətmə və öyrənmə mühiti haqqında tövsiyələr veriləcəkdir. | | |
| **Kursun məqsədləri** | Kursun məqsədi tələbələrdə, ümumtəhsil məktəblərində tədris edilən Azərbaycan dili fənninin məzmunu, dərsin tədrisinə qoyulan tələbləri, ümumi təhsil proqramları (kurikulum) çərçivəsində gözlənilən təlim nəticələrini əldə etməyin yollarını düzgün müəyyənləşdirmək, eyni zamanda aşağıda qeyd olunan məqsədləri əldə etməkdir.<br>ADT-nin şagirdlərin ünsiyyət imkanlarını genişləndirdiyini, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, *səmərəli ünsiyyət, dinləmə*, *düşünmə, öyrənmə* və *danışma, yazma, mühakiməetmə, problem həlletmə, tənqid, məntiqi və yaradıcı düşünmə* bacarıqlarının formalaşdırmağın metod və texnikalarını göstərmək və gələcək müəllimləri şagirdlərdə oxu, dinləmə, anlama bacarıqlarını, dinləmə və nitq mədəniyyətini formalaşdırılması üsul və texnikaları ilə tanış etmək, onlarda ünsiyyət qurma, təhlil etmə, sintez etmə, dəyərləndirmə və mühakimə etmə kimi yüksək idraki bacarıqları formalaşdırmağı təmin etməkdir. | | |

| | |
|---|---|
| **Təlim nəticələri** | 1. Tələbələrin kursun sonunda aşağıdakı ümumpeşə kompetyensiyalarının inkişaf etdirməsi nəzərdə tutulur:<br>• tənqidi şəkildə yanaşma;<br>• yaradıcı şəkildə düşünmə;<br>• pozitiv ünsiyyət yaratmaq;<br>• problem həll etmə;<br>• araşdırma;<br>• qərar vermə;<br>• informasiya vasitələrindən istifadə etmək;<br>• təşəbbüskarlıq.<br>**2.** Tələbələr bu kursun sonunda aşağıdakı bilik və bacarıqları nümayiş etdirəcəklər:<br>2.1. ADT metodikasında müasir yanaşmaları və prinsipləri izah edir.<br>2.2. ADT-nin məzmunu anlayır və şərh edir.<br>2.3. ADT-nin nəzərdə tutulan təlim nəticələrini və formalaşdırılacaq bacarıqları şərh edir.<br>2.4. Dinləyib anlama və danışma məzmun xəttində nəzərdə tutulan bacarıqları şərh edir və bu bacarıqları formalaşdıracaq təlim metodları və texnikalarını müəyyənləşdirir.<br>2.5. Oxu məzmun xətti üzrə şagirdlərdə formalaşdıracaq bacarıqları şərh edir və bu bacarıqları formalaşdıracaq təlim metodları və texnikaları müəyyənləşdirir.<br>2.6. Şagirdlərdə yazı bacarığının formalaşdırılması üsul və texnikalarını müəyyənləşdirir.<br>2.7. Dil qaydalarının tədrisi metod və texnikasını təsvir edir.<br>2.8. Azərbaycan dili dərsinin perspektiv və carı planlaşdırmasının əsas prinsiplərini bilir və planlaşdırmaya dair nümunələr hazırlayır.<br>2.9. Azərbaycan dili dərsləri üçün standart əsaslı təlim məqsədləri müəyyən edir.<br>2.10. Dərsliklərlə yanaşı, əlavə resurslardan istifadə edərək təlim məqsədlərini reallaşdıran fəaliyyət nümunələri hazırlayır.<br>2.11. Nəzərdə tutulan təlim nəticələrinin ölçülməsinə yönəlik məqsədəuyğun, etibarlı qiymətləndirmə vasitələrinin hazırlanması prinsiplərini bilir və qiymətləndirmə üsul və vasitələri hazırlayır. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Fəallığa görə veriləcək bal tələbənin müzakirələrdə bütün semestr boyu davamlı iştirakına, dərslərdə və təcrübəçi tələbənin keçdiyi açıq dərslərdə göstərdiyi fəallığa, semestr ərzində fəallığına, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə verilir. Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınır. **Üzrsüz buraxılan 1 dərs üçün 1 (bir) bal çıxılır.**<br><br>Fənnin tədrisi zamanı verilən ballara aydınlıq gətirsək; |

**Aralıq imtahanı – 30** (imtahanda tələbələrin biliyi açıq sual və test tapşırıqları vasitəsilə yoxlanılır.)

**Fəallıq - 5**
Fəallığa görə veriləcək bal tələbənin davamlı şəkildə müzakirələrdə iştirakına, dərslərdə və təcrübəçi tələbənin keçdiyi açıq dərslərdə göstərdiyi fəallığa, ev tapşırıqlarının yerinə yetirilməsinə, semestr boyu fəallığına, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa, eləcə də icmal tapşırıqlarına görə verilir. Aşağıdakı cədvəldə 5 balın bölgüsü təsvir edilir:

2 bal – *mühazirələrin öyrənilməsi, təqdimatların hazırlanması və dərsdə fəal iştirak;*
1 bal – *icmalların mütəmadi yazılması;*
1 bal – *müzakirələrdə, qrup işlərində iştirak;*
1 bal – *açıq dərs layihələrində fəal iştirak.*

**Final imtahanı - 40** (imtahanda həm açıq suallar, həm də test tapşırıqları verilir)

**Digər (davamiyyət) - 5** (Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. **Üzrsüz buraxılan 1 dərs üçün 1 (bir) bal çıxılacaq**dır. Dərsə gecikmək olmaz. Jurnala “qb” yazıldıqdan sonra düzəlişə yol verilmir.)

**Tapşırıqlar**
<u>Açıq dərs layihəsi</u>
**Qeyd: Tələbələr fərdi şəkildə icmal yazaraq açıq dərs hazırlayır və dərs müddətində ayrılmış vaxtda (45 dəqiqə) canlı olaraq auditoriyada təqdim edirlər.**
**Tələblər:**

1. İcmal əsasında hazırlanmalı; (1 bal)
2. Təlim texnologiya və üsulları tətbiq edilməli; (1 bal)
3. Müəllim görkəm və geyiminə əməl etməli; (1 bal)
4. Müəyyən edilmiş dərs müddətinə əməl etməli; (2 bal)
5. Akademik nitq və davranışa diqqət edilməli; (1 bal)
6. Fənn üzrə bilik və bacarıqlarını nümayiş etdirməli, orfoqrafik və elmi səhvlərə yol verilməməli; (2 bal)
7. İcmaldakı təlim nəticələrinə nail olunmalı; (2 bal)

**Qeyd: Müəyyən edilmiş vaxtda təqdim etməyən tələbə sıfır balla qiymətləndirilir. Əgər üzrlü səbəbdən təqdim edə bilmirsə, bu barədə bir həftə öncədən məlumat verməlidir.**

<u>Video dərs layihəsi</u>
**Tələbələr müəllimlə razılaşdırılmış mövzu üzrə video dərs hazırlayırlar. Bu dərs auditoriyadan kənarda Microsoft Teams platformasında qeyd götürməklə və ya digər video hazırlayıcı proqramlar (Canva Video Editor, CapCut, Video maker və s.) vasitəsilə hazırlanır. Aşağıdakı qaydalara *riayət etdiyinə əmin olan* tələbə dərs**

| | |
|---|---|
| | **ərzində (müəyyənləşdirilmiş qrafik üzrə təyin edilmiş vaxtda) təqdim edir. Dərsin ilk növbədə təqdimatı hazırlanır. Təqdimatda hazır materiallardan istifadə etməyə yol verilmir. Tələbənin yaradıcı yanaşması olmalıdır. Dərslərə qoyulan tələblər:**<br>1. 5-8 dəqiqə olmalı; (2 bal)<br>2. Səs və görüntü effektli olmalı; (3 bal)<br>3. Elmi səhvlərə yol verilməməli; (2 bal)<br>4. Dərsin mövzusunu tam şəkildə əhatə etməli; (1 bal)<br>5. Orfoqrafik səhvlərə yol verilməməli; (1 bal)<br>6. Dərsin sonunda yoxlayıcı tapşırıqlar yer alması, hazır tapşırıqlara müraciət olunmamalı. (1 bal)<br>**Qeyd: Müəyyən edilmiş vaxtda təqdim etməyən tələbə sıfır balla qiymətləndirilir.**<br><br>**İmtahan haqqında:**<br><br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən əlavə mənbələrə də müraciət etmək lazımdır.<br>2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və Final imtahanlarının hər ikisində suallar test və ya açıq ola bilər. |

**Cədvəl**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 21.02.2026<br>21.02.2026 | Azərbaycan dilinin tədrisi metodikasında müasir yanaşmalar və prinsiplər.<br>Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.<br>AD-nin digər fənlərlə əlaqəsi, digər fənlərin öyrənilməsindəki yeri, fənlərarası və fəndaxili inteqrasiya anlayışı | 2019, s. 6-40<br>Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (təlim Azərbaycan dilində olan məktəblər üçün) fənni kurikulumu<br>(V-XI siniflər)<br><br>PPT təqdimatlar |
| 2. | 28.02.2026<br>28.02.2026 | Azərbaycan dili təliminin məzmunu (dinləyib –anlama və danışma, oxu, yazı, dil qaydaları) və nəzərdə tutulan təlim nəticələrinin təhlili<br>***Qrup işi** (Azərbaycan dili fənni üzrə ümumi təlim nəticələri, məzmun xətləri üzrə təlim nəticələri, siniflər üzrə təlim nəticələrinin müqayisəli təhlili)* | 2019, s. 150-159<br>Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>“Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin |

| | | | |
|---|---|---|---|
| | | | tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar |
| 3. | 07.03.2026<br>07.03.2026 | Dinləyib –anlama və danışma məzmun xəttinin tədrisi metodikası (dinləmə-izləmə, dinləmə- anlama, dinləmə-danışma, effektiv dinləməyə mane olan səbəblər, dinləmə növləri)<br>Dinləyib –anlama və danışma məzmun xətti vasitəsilə şagirdlərdə formalaşdırılması nəzərdə tutulan bacarıqlar, Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumunda dinləyib anlama və danışma məzmun xətti üzrə nəzərdə tutulan təlim nəticələri, əsas və alt-standartların taksonomik təhlili, təlim məqsədlərinin təyin edilməsində nəzərə alınacaq əsas prinsiplər.<br>***Qrup işi (***Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənn kurikulumunda dinləyib –anlama və danışma məzmun xətti üzrə nəzərdə tutulan təlim nəticələrinə yönəlik təlim məqsədlərinin təyini) | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.e-derslik.edu.az/site/index.php |
| 4. | 14.03.2026<br>14.03.2026 | Dinləyib –anlama və danışma məzmun xəttinin tədrisində istifadə edilən metodlar və fəaliyyət nümunələri<br><br>Dinləyib-anlama və danışma məzmun xətti üzrə əldə ediləcək təlim məqsədlərinə yönəlik qiymətləndirilmə vasitələrinin hazırlanması | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər) 2019, s. 74-81<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>Qrup işləri<br>PPT təqdimatlar<br>Azərbaycan dili dərsliklər (5-8 siniflər) |
| 5. | 21.03.2026<br>21.03.2026 | Oxu məzmun xəttinin tədrisi metodikası, oxuma-anlama metodikası, müxtəlif oxu materiallarının istifadəsi ( ədəbi, elmi-kütləvi və s.)<br>Oxu texnikaları. | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin |

| | | | |
|---|---|---|---|
| | | Oxu məzmun xətti üzrə formalaşdırılacaq bacarıqlar, təlim məqsədlərinin təyini, fəaliyyət nümunələrinin təhlili.<br>Sinifdən xaric oxunun təşkili və qiymətləndirilməsi prinsipləri<br>Oxu bacarığını qiymətləndirmə vasitələrinə aid nümunələrin təhlili<br>Oxu bacarığını formalaşdıran dərs nümunələrinin hazırlanması | tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.e-derslik.edu.az/site/index.php<br>2019, s.48-54<br>Azərbaycan dili dərsliklər (5-8 siniflər) |
| 6. | 28.03.2026<br>28.03.2026 | Yazının tədrisi metodikası, yazı tədrisinin məqsədləri, yazı vasitəsilə qazandırılacaq bacarıqlar,<br>Yazı məzmun xətti üzrə təyin edilmiş təlim nəticələri, standartların təhlili, təlim məqsədlərinin təyini, yazının tədrisində müəllimin vəzifələri, şagirdlərin leksik fondunun zənginləşdirilməsi, lüğətlərlə iş və kəlmə xəzinəsinə təsir edən amillər və s.<br>Sinif içi və sinifdən xaric yazıların tədrisi metodikası, yazı növlərinin tədrisi, yazı texnikaları | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər) "Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.e-derslik.edu.az/site/index.php<br>2019, s. 54-74 |
| 7. | 04.04.2026<br>04.04.2026 | Yazı məzmun xətti üzrə fəaliyyətlərin və tapşırıqlarının hazırlanması və yoxlanılması prinsipləri<br>Yazının tədrisində qarşılaşılacaq problemlər<br>Yazının növləri | 2019, s. 226-246 |
| 8. | 11.04.2026<br>11.04.2026 | Müəllimin təlim fəaliyyətinin planlaşdırılması | 2019, s. 48-54<br>PPT təqdimatlar |
| 9. | 18.04.2026<br>18.04.2026 | Dil qaydalarının tədrisi metodikası.<br>**Aralıq imtahanı** | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər) "Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar |

| | | | |
|---|---|---|---|
| | | | http://www.e-derslik.edu.az/site/index.php<br><br>2019, s.203-276 |
| 10. | 25.04.2026<br>25.04.2026 | Ümumtəhsil proqramları ( Azərbaycan dili fənn kurikulumları) çərçivəsində əhatə olunan dil qaydaları mövzularının siniflər üzrə təhlili | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.e-derslik.edu.az/site/index.php<br>Azırbaycan dili 5-8-ci siniflər dərslik<br>2019, s. 74-81 |
| 11. | 02.05.2026<br>02.05.2026 | Fonetikanın tədrisi metodikası, fonetika təlimində istifadə edilən metod və texnikalar.<br>Fonetika bölməsinə aid fəaliyyət nümunələrin və qiymətləndirmə vasitələrinə aid nümunələrin təhlili və qiymətləndirmə vasitələrinin hazırlanması | Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.e-derslik.edu.az/site/index.php<br><br>2019, s. 159-172 |
| 12. | 0905.2026<br>09.05.2026 | Leksikologiyanın tədrisi metodikası, fəaliyyət nümunələri və qiymətləndirmə vasitələrinin təhlili və hazırlanması prinsipləri | 2019, s. 172-193<br>Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin |

| | | | |
|---|---|---|---|
| | | | tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.ederslik.edu.az/site/index.php<br>Qrup işləri |
| 13. | 16.05.2026<br>16.05.2026 | Morfologiyanın tədrisi metodikası, morfologiya təlimində istifadə edilən metod və texnikalar.<br>Fonetika bölməsinə aid fəaliyyət nümunələrin və qiymətləndirmə vasitələrinə aid nümunələrin təhlili və qiymətləndirmə vasitələrinin hazırlanması | 2019, s. 200-226<br>Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.ederslik.edu.az/site/index.php<br>Qrup işləri<br>Fəaliyyət və qiymətləndirmə nümunələri |
| 14. | 23.05.2026<br>23.05.2026 | Sintaksisin tədrisi metodikası. Sintaksis təlimində istifadə edilən metod və texnikalar.<br>Sintaksis bölməsinə aid fəaliyyət nümunələrinə və qiymətləndirmə vasitələrinə aid nümunələrin təhlili və qiymətləndirmə vasitələrinin hazırlanması | 2019, s. 322-346<br>Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni kurikulumu (V-XI siniflər)<br>"Orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarinin tətbiqi üzrə", təlim vəsaiti (2-ci nəşr), Xəzər Universiteti- 2013<br>PPT təqdimatlar<br>http://www.ederslik.edu.az/site/index.php<br>Qrup işləri<br>Fəaliyyət və qiymətləndirmə nümunələri |

| | | | |
|---|---|---|---|
| 15. | 30.05.2026<br>30.05.2026 | Azərbaycan dili dərslərində üslubiyyat üzrə işlərin təşkili metodikası | 2019, s. 285-322<br>Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (təlim Azərbaycan dilində olan məktəblər üçün) fənni kurikulumu<br>(V-XI siniflər)<br>PPT təqdimatlar |
| | | **Final** | |